*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 19-20 (9227-9228) | 21 oktyabr 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik



## Azərbaycan Prezidenti İlham Əliyev Qazax rayonuna səfərə gəlib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonuna səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Prezident İlham Əliyevə abidənin ətrafında salınan Heydər Parkında aparılan abadlıq-quruculuq işləri, həmçinin son illərdə rayonda həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.

## Qazax-Kosalar avtomobil yolunun yenidənqurmadan sonra təqdimatı olub





**Oktyabrın 19-da Qazax-Kosalar avtomobil yolu yenidənqurma və əsaslı bərpadan sonra istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

”Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, 6 min nəfər əhalisi olan 2 yaşayış məntəqəsini birləşdirən Qazax-Kosalar avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin 2016-cı il 19 avqust tarixli Sərəncamına əsasən başlanılıb. Uzunluğu 10 kilometr olan dördüncü texniki dərəcəli yolun torpaq yatağının eni 10 metr, iki zolaqdan ibarət hərəkət hissəsinin eni isə 6 metrdir.

Avtonəqliyyat vasitələrinin hərəkətini tənzimləmək üçün yolboyu göstərici xətlər çəkilib, 42 yol nişanı quraşdırılıb, bir avtobus dayanacağı inşa edilib. Ümumilikdə uzunluğu 460 metr olan 30 suötürücü boru tikilib.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

## Prezident İlham Əliyev Qazaxda "Birinci Şıxlı" kəndli fermer təsərrüfatının təqdimatında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonunda ”Birinci Şıxlı Kəndli Fermer Təsərrüfatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə yaxından tanış olub.**

AZƏRTAC xəbər verir ki, təsərrüfat 151 hektar sahədə yaradılıb. 15 hektar sahədə isə süni yağışyağdırma üsulunun tətbiqi ilə pivot suvarma sistemi qurulub. Bu da məhsuldarlığı 2-3 dəfə artırmağa imkan verəcək. Bildirildi ki, gələcəkdə fermer təsərrüfatının istifadəsində olan torpaqlarda kartofla yanaşı, soğan, kök və digər tərəvəz məhsullarının əkilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı ərazidə məhdud məsuliyyətli cəmiyyət üçün inşa olunan inzibati binada yaradılan şəraitlə tanış oldu.

Binanın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif illərdə Qazax rayonuna səfərlərini əks etdirən fotoguşə var. Binada fermer təsərrüfatında çalışanlar üçün hər cür şərait yaradılıb. Konfrans zalı, yeməkxana işçilərin ixtiyarına verilib. Diqqətə çatdırıldı ki, burada əkinçilik tədris mərkəzi fəaliyyət göstərəcək və hazırlanacaq mütəxəssislər regionda həyata keçiriləcək kənd təsərrüfatı layihələrinə cəlb olunacaq. Təsərrüfatda ümumilikdə 170 nəfər işlə təmin ediləcək.



Müəssisənin ərazisini gəzən Prezident İlham Əliyevə məlumat verildi ki, bu təsərrüfat regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Burada sınaq və təcrübə sahəsində Almaniyadan gətirilən ”AQATA” kartof növü əkilib. Ərazidə texnika üçün park inşa edilib. İlkin mərhələdə təsərrüfat üçün müxtəlif növ 11 maşın-mexanizm alınıb. Müəssisədə kartof, soğan, kök və digər tərəvəz məhsullarının təmizlənməsi, yuyulması, qurudulması, çeşidlənməsi və qablaşdırılması üçün ən müasir texnologiyalar əsasında istehsal sahəsi yaradılıb. İstehsal edilən məhsullar ilkin olaraq daxili bazar üçün nəzərdə tutulub. Hazır məhsulların saxlanılması üçün tutumu 2 min ton olan anbar da inşa olunub.

Sonra müəssisənin kollektivi və Qazax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev bu cür müəssisələrin ölkədə kənd təsərrüfatının inkişafında mühüm rol oynadığını bildirdi. Burada yetişdiriləcək məhsulların ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəyini deyən dövlətimizin başçısı kartof, taxıl və şəkər çuğundurunun əkininin genişləndirilməsinin əhəmiyyətindən danışdı, münbit torpaqlardan səmərəli istifadə olunmasının vacibliyini vurğuladı. Prezident İlham Əliyev bundan sonra da sahibkarlara dövlət dəstəyinin davam etdiriləcəyini deyərək bildirdi ki, kənd təsərrüfatının inkişafı üçün infrastruktur layihələri həyata keçirilir, bu sırada elektrik enerjisi ilə təminat diqqət mərkəzində saxlanılır.

Müəssisə kollektivinin üzvləri və rayon ictimaiyyətinin nümayəndələri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etdilər, bu cür müəssisələrin rayonun inkişafında, o cümlədən yeni iş yerlərinin yaradılmasında mühüm rol oynadığını vurğuladılar.

Sonda xatirə şəkli çəkdirildi.

# Qazax rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışını edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, 1984-cü ildə yaradılan muzey müasir tələblərə cavab verməyən birmərtəbəli binada fəaliyyət göstərirdi. Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının inşasına 2015-ci ilin noyabr ayında başlanılıb və 2016-cı ilin oktyabrında tikinti işləri başa çatdırılıb.

Binanın tikinti sahəsi 432,6 kvadratmetr, ümumi sahəsi 1728 kvadratmetrdir. Muzeyin ikimərtəbəli binasında rayonun təbiətini və tarixini əks etdirən 2450 eksponat mühafizə olunur.

Binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Həmçinin bu mərtəbədə Muzey barədə ümumi məlumat, təbiət, arxeologiya, qədim daş dövrü, orta əsrlər və "bəy evi" bölmələri var.

Tarix-Diyarşünaslıq Muzeyinin ikinci mərtəbəsində "Qazax xalça məktəbi", "Etnoqrafiya və folklor", "Qazax XIX-XXI əsrin əvvəllərində", "Səməd Vurğun", "Görkəmli şəxsiyyətlər", "1929-1990-cı illər", "Müasir dövr" və "Azərbaycan XXI əsrdə" bölmələri yaradılıb. Burada Qazaxın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqda maraqlı məlumatlar və eksponatlar toplanıb.

Binanın mansardasında isə iş otaqları, konfrans zalı, kitabxana, mətbəx və kafe yaradılıb.

Muzeyin binası müasir havalandırma sistemi və müşahidə kameraları ilə təchiz edilib.








## Qazax şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası nəticəsində Qazax rayonunda mühüm infrastruktur və sosialyönümlü layihələr həyata keçirilmiş, o cümlədən Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, Tarix Diyarşünaslıq Muzeyi, Gənclər Mərkəzi, Uşaq-Gənclər Şahmat Məktəbi, Ədəbiyyat Muzeyi, əlil və şəhid ailələri üçün ümumilikdə 56 mənzilli 3 yaşayış binası inşa edilmiş, iri istehsal və emal müəssisələri yaradılmış, 11 mindən çox yeni iş yeri açılmış, qırx beş min nəfər əhalinin yaşadığı 23 yaşayış məntəqəsini birləşdirən və ümumi uzunluğu 67 kilometr olan kəndlərarası avtomobil yolları tikilmiş, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qazaxda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə şəhərin mənzil fonduna daxil olan 24 çoxmənzilli binanın əsaslı təmiri məqsədi ilə **qərara alıram:**

**1.** Qazax şəhərində çoxmənzilli binaların əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qazax Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 20 oktyabr 2016-cı il.***

# Qazax rayonunda "Daş Salahlı" yarımstansiyasının açılışı olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax rayonunda 110/35/6 kilovoltluq "Daş Salahlı" yarımstansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, yarımstansiyanın binasında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri layihələri əks etdirən fotostendlər yaradılıb.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, Qazax rayonunun böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə 110/35/6 kilovoltluq yeni "Daş Salahlı" yarımstansiyası inşa edilib. "Daş Salahlı" son 20 ildə qərb bölgəsində tikilən 110 kilovoltluq 4-cü, respublika üzrə isə 44-cü belə yarımstansiyadır.

Diqqətə çatdırıldı ki, əvvəlki yarımstansiya 8 kəndi və 3637 abonenti əhatə edirdisə, "Daş Salahlı" artıq 22 kəndi, 19364 abonenti, o cümlədən Qazax və Ağstafa rayonlarındakı sosial obyektləri və istehsal müəssisələrini dayanıqlı elektrik enerjisi ilə təmin edəcək. Həmçinin bu yarımstansiyanın istifadəyə verilməsi ilə regionda mövcud güc çatışmazlığı aradan qalxacaq, növbəti illərdə enerjiyə yaranacaq tələbat ödəniləcək.

Məlumat verildi ki, yeni yarımstansiya ən son elmi-texniki yeniliklərə əsaslanan "eleqaz", "vakuum" tipli avadanlıqlarla təchiz edilməklə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə də qoşulub.

Sonra Prezident İlham Əliyevə foto-video slayd vasitəsilə "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti dövründə görülən işlər barədə məlumat verildi.

Dövlətimizin başçısı "Daş Salahlı" yarımstansiyasını işə saldı.

Bildirildi ki, bu yarımstansiya ilə birlikdə respublikanın digər bölgələrində yeni tikilib istismara hazır olan 110 kilovoltluq 10, 35 kilovoltluq 19 yarımstansiya istismara verilir.

Dövlətimizin başçısı 35 və 6 kilovoltluq Qapalı Paylayıcı Qurğulara baxdı.

Paylayıcı qurğular son elmi-texniki yeniliklər əsasında qurulub. Ən son texnologiyalara əsaslanan bu cür layihələr həm paytaxtda, həm də bölgələrdə yenidənqurma tədbirlərinin ardıcıl xarakter aldığını bir daha təsdiq edir.





# 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

**2016-cı ilin 9 ayı rayonumuz üçün uğurlu olmuşdur. Qazax rayonu üzrə 2016-cı ilin yerli gəlir və xərclərinin proqnozu 19670799 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6614000 manatını yerli daxilolmalar, 13056799 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 33,6 faiz, dotasiya isə 66,4 faiz olmuşdur.**

2016-cı ilin 9 ayında yerli daxilolmalar 4709168 manat proqnoza qarşı 4864659 manat və ya 103,3 faiz yerinə yetirilərək büdcəyə 155491 manat çox vəsait mədaxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 9181989 manat icra olunmuşdur. (94,8%)

2016-cı ilin 9 ayında yerli xərclər 88,7 faiz və ya 1802913 manat az icra olunmuşdur. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir. Cəmi yerli xərclər 15925563 manata qarşı 14412650 manat yerinə yetirilmişdir.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 406 nəfərlik iş yerinin açılması məqsədi ilə 51 layihə üzrə 9479600 manat kredit verilmişdir ki, bundan 5 layihə üzrə 358 iş yerinin açılması məqsədilə 9060000 manatı sənaye məhsulları istehsalına və 46 layihə üzrə 48 iş yerinin açılması məqsədilə 419600 manat kənd təsərrüfatı məhsulları istehsalı sahələrinə ayrılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2016-cı ilin 9 ayında ödəniş müəssisələrinə 27800000 manat vəsait köçürülmüşdür. Şöbədə 2016-cı ilin 9 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 87,2 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə 3153300 manat proqnoza qarşı 2840000 manat, yəni 90 faiz, qeyri büdcə təşkilatları üzrə 845900 manata qarşı 647400 manat olmaqla 76,5 faiz yerinə yetirilmişdir.

Ötən 9 ay ərzində Fond tərəfindən 1768 ailəyə ünvanlı sosial yardım təyin edimiş və ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2016-cı ilin 9 ayında Qazax Elektrik şəbəkəsi tərəfindən 10 kv hava xəttində 19,53 km, 0,4 kv hava xəttində 11,05 km uzunluğunda cari təmir işləri aparılmış, 479 ədəd yararsız dayaqlar yenisi ilə əvəz edilmiş və 501 ədəd transformator cari təmir olunaraq sxemaya qoşulmuşdur. Əhali tərəfindən 328 yeni tikilmiş evlərə sayğaclar quraşdırılmış, 4,44 km uzunluğunda giriş xətləri çəkilmiş, 900 ədəd zədəli sayğaclar yeni elektron sayğaclarla əvəz edilmişdir.

Daş Salahlı kəndində yerləşən "Avey" hərbi postuna 51 ədəd dayaq quraşdırılmaqla 3,5 km uzunluğunda xətt çəkilərək elektrik enerjisi verilmişdir.

Qazax rayonunda Prespektiv inkişaf proqramına əsasən 110/35/6 Daş Salahlı və 35/10 kv-luq Qazax1 yarımstansiyaları yeni müasir tipli avadanlıqlarla təmin olunmaqla tam yenidən qurulmuşdur. Həmin yarımstansiyalarda bütün giriş və çıxış xətləri yüksək gərginlikli kabellərlə yerinə yetirilmişdir. Qazax şəhəri, Daş Salahlı və Ağköynək, Xanlıqlar, Birinci Şıxlı kəndlərində sipləşmə ilə əlaqədar 23 ədəd yeni transformatorlar sxemaya qoşulmuşdur. Əlavə olaraq 20 ədəd yeni KTM verilmişdir. 51,68 km sip kabel çəkilərək 2.546 ədəd dayaq quraşdırılmışdır. Hazırda sipləşmə işləri davam edir.

Ötən dövrdə əhaliyə satılan enerjinin dəyəri 1521468 manat, toplanan vəsait isə 1517200 manat olmuşdur. Cəmi yığım 91,2 faiz, o cümlədən yerli əhali üzrə 98,1 faiz yerinə yetirilmişdir.

Bildiyiniz kimi Qazax rayonun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Sahəsi tərəfindən 9 ayda əhali abonentlərə satılmış qazın dəyəri 2539545 manat olmuş, 2399481 manat (94,5%) vəsait yığılmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 101812 manat az vəsait toplanmışdır. Ötən 9 ay ərzində 457 nəfər abonent təbii qazla təmin olunmuşdur.

Qazax Telekommunikasiya Qovşağı cari ilin 9 ayında 2015-ci ilin 9 ayı ilə müqayisədə 48394 manat artıq vəsait toplayaraq planı 100 faiz yerinə yetirmişdir. 207 ədəd yeni telefon çəkilmiş, 85 ədəd telefon şəbəkəyə bərpa olunmuşdur.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su və telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 109 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 707 ədəd bağlama qəbul edilmiş və 205 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir.

"Qazax Avtovağzal" ATSC-i 2016-cı ilin 9 ayında plana 107 faiz əməl edərək 246100 sərnişinə xidmət göstərmişdir.

Qazax Su-Kanal idarəsi tərəfindən 2016-cı ilin 9 ayında 5991 abonentə xidmət göstərilmiş və 303134 manat vəsait toplanmışdır. Bu isə satışın 95 faizini təşkil edir. Təşkilat tərəfindən 2 ədəd subartezian nasosu mühərriklə birlikdə yenisi ilə əvəz olunub, 1 ədəd artezian nasosu, 4 ədəd su mühərriki və 2 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur.

Coğazçay-Qazax magistral su xəttində baş vermiş qəzalar nəticəsində D 530 mm-lik magistral su xəttinin 20 p/m hissəsi yenisi ilə əvəz olunmuş və Dəmirçilər kəndi ərazisində magistral xəttin çayın içərisindən keçən hissəsində 300 p/m su xəttinin alt hissəsi çınqılla doldurulub bərkidilmişdir.

Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2016-cı ilin fevral ayından abadlıq və quruculuq işlərinin aparılması məqsədilə Kommunal Müəssisələri Kombinatında 100 nəfər işlə təmin olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən balansında olan 19 çoxmənzilli binanın blok və fasadlarında təmir işlərinin yerinə yetirilməsi üçün 95 nəfər suvaqçı və rəngsaz işə qəbul edilmiş və işlər başa çatdırılmışdır.




Mənzil İstismar Sahəsi ötən 9 ay ərzində 3 binanın dam örtüyündə köhnə azbest şiferləri yeni metal kirəmitlərlə əvəz etmiş, vətəndaşlardan 80 faiz mənzil xidmət haqqı toplamışdır.

28 saylı Yol İstismar idarəsi tərəfindən ötən dövr ərzində rayonun uzunluğu 7 km olan Cəfərli, uzunluğu 5 km olan Fərəhli kəndlərinin yollarına, həmçinin Quşçu Ayrım, Məzəm və Çaylı kəndlərinin kənd daxili yollarına çınqıl döşənmişdir. Rayon ərazisindən keçən magistral avtomobil yolunda və Yuxarı Salahlı-Kəmərli avtomobil yolunda yaranmış çalalar asfalt örtüyü ilə təmir olunmuş, Aslanbəyli kəndində bardurlar düzərək səkilərə asfalt örtüyü qoyulmuşdur.

2016-cı ilin 9 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 1 məktəb-lisey, 6 orta ümumtəhsil, 7 ibtidai məktəb və 5 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11439 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1743 nəfər müəllim məşğul olmuşdur.

2016-cı ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 308 nəfər şagird iştirak etmişdir. Gəncə şəhərində keçirilən zona mərhələsində yüksək yer tutmuş 2 nəfər şagird aprel ayında Bakı şəhərində keçirilən respublika turunda iştirak etmişlər. Qazax şəhər məktəb-liseyin XI sinif şagirdi Məmmədova Leyla Azərbaycan dili və ədəbiyyat fənnindən II yeri tutmuşdur.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar olaraq rayonun IX-XI sinif şagirdləri arasında "Heydər Əliyev uşaqların gözü ilə" şagirdlərin təqdimatı işində Hüseynbəyli kənd tam orta məktəbinin X sinif şagirdi Zamanov İsmayıl birinci yeri tutumuşdur.

2015-2016-cı dərs ilində tam orta ümumtəhsil məktəblərinin 846 məzunu olmuş, onlardan şəhər 2 saylı tam orta məktəbin məzunu Mirzəyev İlham və məktəb-liseyin məzunu Məmmədova Leyla təhsillərini yüksək naliyyətlərlə başa vurduqlarına görə Təhsil Nazirliyi tərəfindən "Qızıl medala" layiq görülmüşdür.

Məzunlardan 468 nəfər, əvvəlki illərin məzunlarından isə 50 nəfər cəmi 518 nəfər ali təhsil müəssisələrinə qəbul üçün sənəd vermişdir. 319 nəfər ali məktəblərə, 88 nəfər isə orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuşdur. Ali hərbi və xüsusi təyinatlı müəssisələrə 9 nəfər daxil olmuşdur.

I və IV qrupların qəbul imtahanlarında 200-ə yaxın məzun iştirak etmişdir ki, onlardan Canalı kənd tam orta məktəbin məzunu İsmayılova Səbinə Emil qızı 700 bal, şəhər 2 saylı tam orta məktəbin məzunu Mirzəyev İlham 690 bal toplamışdır. Rayon üzrə ümumilikdə 19 nəfər abiturient 600-dən yuxarı bal toplamış, qəbulun nəticəsi 63 faiz olmuşdur.

Rayon Mədəniyyət və Turizm şöbəsi 2016-cı ilin 9 ayında rayonda bayram konsertləri, şənliklər keçirmiş, əlamətdar günlər münasibətilə 53 mədəni-kütləvi tədbirlər təşkil etmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrində ambulator gəlişlərin sayı 118402 nəfər olmuş, 4500 nəfər labarator, flüoqrafik və rentgen müayinəsindən keçirilmişdir. 310 nəfər üzərində cərrahi əməliyyat aparılmışdır.

Dövlət başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla yerinə yetirilmişdir.

Rayon İcra Hakimiyyəti Başçısı Aparatında yaradılmış komissiyanın əhali arasında apardığı təbliğat, təşviqat və məlumatlandırma işlərinin nəticəsidir ki, əhali aksiyada mütəşəkkil sürətdə iştirak etmişdir. Müayinə nəticəsində 3018 nəfərə ambulator, 246 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 43 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 9 ay ərzində 18601 ambulator gəliş olmuş, cərrahiyyə şöbəsinə 763 xəstə daxil olub, 588 cərrahi əməliyyat aparılıb. Hemodializ şöbəsində 100 xəstə müalicə alıb 6121 hemodializ seanslar tətbiq olunmuşdur.

Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ilin 9 ayında gənclərlə iş sahəsi üzrə 12, bədən tərbiyəsi və idman sahəsi üzrə 19 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 2883 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 12, respublika yarışlarında 50 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

2016-cı ilin ötən dövründə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 13200000 manat, ümumi məhsul buraxılışının həcmi 132145000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 10050000 manat keçən ilə nisbətən 1,6 faiz az, kənd təsərrüfatı məhsullarının həcmi 47.209.400 manat 2015-ci ilə nisbətən 4,8 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 1400 manat, orta aylıq əməkhaqqı 263 manat olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Ötən 9 ay ərzində 14 yeni müəssisə yaradılmışdır.

Rayon üzrə 1487-si daimi olmaqla 1577 yeni iş yeri açılmışdır. 2016-cı ilin 9 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 17 dövlət və 10 qeyri-dövlət müəssisələrindən 297 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 2009 nəfər vətəndaşlardan 983 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 722 nəfər münasib işlə təmin olunmuşdur.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir- tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi 2016-cı ilin 9 ayında da davam etdirilmişdir.

Belə ki, rayonda Kənd Təsərrüfatı idarəsi üçün inşa edilən iki mərtəbəli, mansardlı binanın tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Qazax şəhərində müasir tələblərə cavab verən 940,8 m2 sahəsi olan 3 mərtəbəli Tarix Diyarşünaslıq Muzeyinin tikintisi başa çatmışdır.

Birinci Şıxlı kəndi ərazisində layihə smeta dəyəri 3 mln 241 min manat olan "Birinci Şıxlı kəndli fermer təsərrüfatı"nın tikintisinə may ayında başlanılmış və tikinti işləri başa çatdırılmışdır.

"Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC sahəsi 560 kv.m olan inzibati bina və eyni zamanda tərəvəzlərin (kartof, soğan, kök) təmizlənməsi, yuyulması, qurudulması, çeşidlənməsi və paketlənməsi üçün sahəsi 600 kv.m olan sex və bir ədəd tutumu 2 min ton, sahəsi 600 kv.m olan anbardan ibarətdir. Təsərrüfatla bağlı maşın mexanizmlər alınmış və 250 kv.m sahədə Texnika parkı yaradılmışdır. 15 hektar torpaq şumlanaraq pilot suvarma sistemi qurulmuşdur.

MMC-nin yaradılmasında məqsəd kənd təsərrüfatına yararlı əkin sahələrindən səmərəli istifadə, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasıdır. Hazırda təsərrüfatın ümumi əkin sahəsi 636 hektardır. Ondan 231 hektarı kartof, 405 hektarı isə taxıl sahəsidir. "Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC-də hazırda işçilərin sayı 28 nəfərdir, gələcəkdə işçilərin sayının 170-ə çatdırılması nəzərdə tutulmuşdur.

Ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni qəsəbənin tikintisi başa çatdırılmış və məcburi köçkün ailələri həmin binalara köçürülmüşlər.

Bərpa Agentliyi tərəfindən Yuxarı Salahlı kənd tam orta məktəbdə əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Uzunluğu 10 km olan Qazax-Kosalar avtomobil yolunun tikinti işləri başa çatdırılmışdır.

Rayonun Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq fermasının tikintisi başa çatmış, 25 nəfər işlə təmin olunmuşdur.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə Mərkəzi rayon xəstəxanasının yerində yeni 145 çarpaylıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Hələlik müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın vaxtlarda işlərə başlanılacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün fərdi qaydada tikilməsi nəzərəd tutulmuş 14 yaşayış evindən 8 yaşayış evi istifadəyə verilmiş, 6 yaşayış evlərinin tikintisi davam etdirilir.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və baxılmaq üçün Fövqəladə Hallar Nazirliyinin Ekspertiza şöbəsinə göndərilmişdir.

Qazax Sement zavodunun ikinci hissədə klinker istehsalı üzrə tikinti işləri davam etdirilir.

Yaxın vaxtlarda Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Qazax şəhərində Şəhidlər Xiyabanı qəbiristanlığında abadlıq-bərpa işləri aparılmış, belə ki, 500 m2-dən çox döşəmə tamamilə dəyişdirilmiş, qəbir daşları və divarlar şilfovka edilmiş, çökmüş qəbirlər bərpa olunmuş, 400 m2 sahəyə qazon otu əkilmiş, şəhidlər bulağına su xətti çəkilərək xiyabanın yolu təmir olunmuşdur. Şəhər ərazisində olan bütün şəhid bulaqlarında təmir işləri aparılmışdır. Həmçinin rayonun Yuxarı Salahlı və Daş Salahlı kəndlərində Şəhidlər Xiyabanlarında təmir işləri başa çatdırılmışdır.

Rayonun girişində olan Obeliskin ətrafında yenidənqurma və abadlıq işləri aparılaraq şəbəkələr qurulmuş, 5000 m2 sahəyə qazon otu döşənmiş, həmin ərazinin suvarılması üçün su xətti çəkilmiş və işıqlanma sistemi qurulmuşdur. Həmin ərazidə Azərbaycanın ilk təyyarəçisi Fərrux Ağa Qayıbovun xatirəsinə Təyyarə Abidəsi ucaldılmışdır. Bundan əlavə Bayraq Meydanında və Nərimanov qəsəbəsindəki dairəvi yolda əsaslı təmir işləri aparılaraq abidələr tamamilə yenidən qurulmuş və abidə ətrafında geniş abadlıq-quruculuq işləri aparılaraq qazon otu əkilmiş və yeni işıqlanma sistemi quraşdırılmışdır.

Heydər Əliyev Parkı ərazisində yaradılmış süni gölün içərisində işıqlandırma sistemi ilə təchiz edilmiş yeni fəvvarə kompleksi quraşdırılaraq istifadəyə verilmişdir.

Rayon ərazisində olan 10 ədəd çoxmənzilli yaşayış evlərinin həyətlərinə 8000 m2-dən artıq asfalt örtüyü çəkilmişdir. Heydər Əliyev prospekti boyunca çalaların təmir olunmasına və həyətlərin giriş hissəsinə 60 tona yaxın asfalt örtüyü qoyulmuşdur.

Şəhərin prospekt və küçələrində olan 50-dən artıq yaşayış evinin dam örtüyü dəyişdirilərək 12000 m2-ə yaxın dəmir kirəmit vurulmuş, 300 m2-ə yaxın hasar hörülmüş və 5000 m2 evlərin fasad hissələrində və hasarlarda suvaq işləri aparılmış, 30000 m2-ə yaxın rənglənmə işləri görülmüş, yaşayış evlərinə və məhəllələrə ümumilikdə 20 ədəd yeni giriş qapıları düzəldilmiş, 60-a yaxın giriş qapılarında isə təmir və rənglənmə işləri aparılmışdır.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Rayonun kənd yaşayış məntəqələrində 80 km uzunluğunda kənd daxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyinin təmin etmək məqsədilə 428 p/m istinad divarlarının inşası başa çatmışdır.

Bundan əlavə daxili imkanlar hesabına Məzəm kəndində yaşayış evlərinin həyətlərində ümumi uzunluğu 1381 p/m olmaqla, 4143 m2 istinad divarı çəkilmişdir. İkinci mərhələ tikinti işlərinə başlanılmış hazırda işlər davam edir.

Quşçu Ayrım kəndinin əhalisinin təhlükəsizliyini təmin etmək məqsədi ilə yaşayış evlərinin düşmən mövqelərinə baxan pəncərələrinin hörülməsi üçün kənd sakinlərinə tikinti materialları verilmişdir.

Bala Cəfərli və Xanlıqlar kəndlərinin hər birində bir imkansız ailə üçün yaşayış evinin tikintisi başa çatdırılmışdır.

Bala Cəfərli kəndində 6 evin dam örtüyü tamamilə 18 evin dam örtüyü isə qismən dəyişdirilmişdir. Quşçu Ayrım, Ürkməzli və Dəmirçilər kəndlərinin hər birində bir Şəhid ailəsi və Dəmirçilər, Ürkməzli kəndlərinin hər birində bir Qarabağ müharibəsi əlilinin evlərində əsaslı təmir və əlavə tikinti işləri aparılmış, Xanlıqlar kəndində isə bir şəhid ailəsinin evinin döşəməsi dəyişdirilmişdir.

Əhalinin içməli suya olan tələbatını təmin etmək məqsədilə Ürkməzli kəndində bir ədəd 20 tonluq, 1 ədəd 16 tonluq su çəni və bir ədəd su nasosu quraşdırılmış, 2 km uzunluğunda su xətti, Dəmirçilər kəndində 1 km uzunluğunda içməli su xətti çəkilmişdir. Aslanbəyli kəndində isə 1 ədəd 5 tonluq su çəni quraşdırılaraq və 350 metr uzunluğunda içməli su xətti çəkilmişdir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni əhəng zavodlarının tikintisi davam edir. Həmin zavodlarda 450-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq fermalarının tikintisi işləri davam etdirilir.

Qaymaqlı kəndində fəaliyyət göstərən fermada lizinq yolu ilə gətirilmiş 75 baş düyədən 76 buzov alınmış, hazırda təsərrüfatda əlavə tikinti işləri başa çatmış və daha 100 baş cins düyələrin gətirilməsi istiqamətində danışıqlar aparılır.

2016-cı ilin 9 ayı ərzində rayonda ağac əkini davam etdirilmiş, əkilmiş 140500 ədəd ağacın 32000 ədədi Bakı-Sınıq Körpü magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki qulluq işləri göstərilir. 25000 ədəd müxtəlif növ ağaclar və 70000 ədəd gül kolları park və xiyabanlarda əkilmişdir.

2016-cı ilin 9 ayı ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Respublika Prezidentinin Sərəncamına uyğun olaraq 2015-ci ildə qazılmış 9 ədəd subartezian quyuları istifadəyə verilmişdir. 2016-cı ildə 5 ədəd qazılacaq subartezian quyularının əraziləri müəyyənləşdirilmiş, hazırda rayonun Daş Salahlı, Çaylı, Kosalar və Xanlıqlar kəndlərində hər birində 1 ədəd olmaqla 4 ədəd subartezian quyularının qazıntısına başlanılmışdır. Bundan əlavə daha 5 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

Fərəhli kəndində 200 hektar ərazinin suvarılması məqsədilə yeni suvarma şəbəkəsi quraşdırılmışdır.

Kənd təsərrüfatı bitkilərinin normal suvarma suyu ilə təmin etmək məqsədi ilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioservis İdarəsi tərəfindən birinci rübdə plana uyğun olaraq arxlarda 533 min m3 lildən təmizləmə işləri aparılmışdır.

2016-cı ilin məhsulu üçün 7906,5 hektar sahəyə taxıl səpilmişdir ki, bu da ötən ildən 2240 hektar çoxdur. Biçin başa çatmışdır. Hektardan ümumi orta məhsuldarlıq 30,4 sentner, buğda 34 sentnerə yaxın olmuşdur. 23.998 ton məhsul götürülmüşdür ki, bu da 2015-ci illə müqayisədə 5781 ton artıqdır.

2016-cı ilin 9 ayında əkinə yararlı torpaq sahəsinin 14895 hektarı əkin altında olmuşdur ki, bundan 5559 ha buğda, 2261 ha arpa, 5665 ha yonca, 433 ha kartof, 106,5 ha dənli paxlalı yazlıq, 435 ha tərəvəz, 34,5 ha bostan, 45 ha günəbaxan, 324 ha qarğıdalı, 22 ha süpürgə və sair əkilmişdir.

2016-cı ildə rayonda 1502 kq barama istehsal edilmiş və 10 hektar sahəyə tütün əkilmişdir. Hazırda tütün yığımı başa çatmaq üzrədir.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 205 baş bala alınmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərinin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır.

Qazax rayon Baytarlıq İdarəsi tərəfindən 2016-cı ilin 9 ayında epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30111 baş iribuynuzlu və 1757 baş təkdırnaqlılar, 136970 baş xırdabuynuzlu heyvanlar qarayara, 57840 baş iribuynuzlu heyvanlar, 104685 baş xırdabuynuzlu heyvanlar dabaq, 5806 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. Həmçinin 245650 baş körpə ev quşları taun xəstəliyinə qarşı La-Sota ilə, 191135 baş yetkin ev quşları isə taun xəstəliyinə qarşı "H" vaksini ilə peyvənd olunmuşlar.

2016-cı ilin 9 ayı ərzində rayon İcra Hakimiyyətinə 1137 müraciət daxil olmuşdur. Müraciətlərdən 231-i Prezidentin Administrasiyasına, 16-ı Milli Məclisə, 15-i Nazirlər Kabinetinə, 48-i respublikanın digər təşkilatlarına, 827-si isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir.

Rayon İcra Hakimiyyəti Başçısının Aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 34,2 faizi mərkəzi orqanlardan, 65,8 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 20,2 faizi müsbət həll olunmuş, 2,8 faizi qismən həll olunmuş, 0,1 faizi əsassız sayılmış, 69,9 faizinə müvafiq izahat verilmiş, 7 faizi isə hazırda icradadır.

2016-cı ilin 9 ayı ərzində Qazax RİH başçısı tərəfindən 35 səyyar görüş-qəbullar keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 13737 nəfər, müraciət edənlərin sayı 367 nəfər olmaqla 253 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 110-u icra edilmiş, 8 məsələ üzrə işlər davam edir, 135 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Bundan sonra da Dövlət Proqramının icra olunmasında hər birimiz daha məsuliyyətlə çalışmalı, verilən tapşırıqların layiqincə yerinə yetirilməsində fəal iştirak etməliyik. Bu yolda hər birinizə uğurlar arzulayıram.

**xxx**

Hesabat yığıncağında rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Arzu Novruzov və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat vermişlər.

**Hesabat məruzəsi ixtisarla dərc edilmişdir.**

# Rayonumuzda şəhidlərin xatirəsinə tikilmiş bulaqların açılışı olmuşdur





**Qazax rayonunda şəhidlərin xatirəsi əziz tutulur, onların adlarının əbədiləşdirilməsi istiqamətində təqdirəlayiq tədbirlər həyata keçirilir. Qazax şəhərində, eləcə də rayonun Daş Salahlı və Yuxarı Salahlı kəndlərindəki Şəhidlər Xiyabanlarının əsaslı şəkildə bərpası, bu müqəddəs məkanların şəhidlərin adına layiq hala salınması bu deyilənlərə əyani sübutdur.**

Bu günlərdə aprel döyüşlərində şəhid olmuş kapitan Orucov Mühüd Qurban oğlu, baş leytenant Namazov Elvin Məmməd oğlu və əsgər Əliyev Orxan Məhəmməd oğlunun xatirəsinə inşa olunmuş bulaqların açılışı olmuşdur. Şəhərin ən görməli yerində - Heydər Əliyev prospektində tikilən həmin bulaqların açılışına şəhid ailələri, müharibə veteranları və gənclərlə yanaşı yüzlərlə rayon sakini, qonaqlar toplaşmışdır.

Açılış mərasimlərində Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini, general-mayor Novruzəli Orucov iştirak etmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsini yad edərək əzəmətli heykəli önünə gül-çiçək dəstələri qoymuşdur.

Sonra açılış mərasimləri olmuşdur. Bulaqların açılışını bildirən ağ örtük qaldırıldıqdan sonra iştirakçılar tərəfindən bulaqların üstünə qərənfillər, tər gül-çiçək dəstələri qoyulmuşdur. Mərasimlərdə hər üç şəhidin, igid vətən oğullarının keçdikləri şanlı döyüş yollarından danışılmış, onların xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağından söz açılmışdır.

Şəhid Mühüd Orucovun anası Sima Orucova çıxış edərək övladlarının adlarını əbədiləşdirdiyinə, onların xatirəsinə bulaqları tikdirdiyinə görə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova şəhid ailələri adından öz dərin minnətdarlıqlarını bildirmişdir.



Daha sonra Qazax Mədəniyyət Mərkəzində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram" adlı tədbir keçirilmişdir.

Azərbaycanın Dövlət Himni səsləndikdən sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söz açmışdır. Qeyd etmişdir ki, Ermənistanla 168 kilometr sərhədi olan Qazax rayonunda gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün lazımi tədbirlər həyata keçirilir, veteranlarla görüşlər təşkil olunur, onların döyüş yolu yetişməkdə olan gənc nəsilə nümunə kimi öyrədilir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini, general-mayor Novruzəli Orucov tədbirdə çıxış edərək gənclərin vətənpərvərlik tərbiyəsində belə tədbirlərin önəmini qeyd etmişdir. Ölkəmizin müstəqilliyi bərpa edildikdən sonra bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da aparılan məqsədyönlü işlərdən danışmış, Azərbaycan Silahlı Qüvvələrinin artan qüdrətindən söz açmışdır.

Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi polkovnik Rasim Şirinov, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri Emin Həsənli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, mayor Vüqar Mirzəyev tədbirdə çıxış edərək aprel döyüşlərində Azərbaycan ordusunun düşmənə sarsıdıcı zərbə endirməsindən danışmış, torpaqlarımızın tezliklə azad olunacağından söz açmışlar.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Fəxri Fərmanı Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova təqdim olunmuşdur. Şəhid ailələrinə xatirə hədiyyələri verilmişdir. Eyni zamanda hərbi fənni tədris edən və həmin fəndə fərqlənən müəllim və şagirdlər də müxtəlif mükafatlarla təltif olunmuşdur.

Vətənpərvərlik mövzusunda hazırlanmış "Ya Qarabağ, ya ölüm" filminin nümayişi tədbir iştirakçılarında böyük təəssürat oyatmışdır.

Sonra səhnəyə məktəblilər və balaca uşaqlar çıxmışdır. Şagirdlərin və körpələrin vətənpərvərlik mövzusunda ifa etdikləri şeirlər böyüməkdə olan gənc nəslin mübarizlik ruhunda tərbiyə olunduğundan xəbər vermişdir.

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Vətənin müdafiəsinə hazıram" adlı tədbir Şəmistan Əlizamanlının ifa etdiyi vətənpərvərlik mahnılarının sədaları altında başa çatmışdır.

**Elçin İSMAYIL**

# Qanunun aliliyi təmin olunur

**Bu il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğu orqanlarının yaranmasının 98-ci ildönümü qeyd edilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq, hər il oktyabr ayının birini Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalamışdır.**

Ölkəmizin hüquq sistemində xüsusi yeri və mövqeyi olan prokurorluq orqanlarının yaranması da cümhuriyyət tariximizin şərəfli səhifələrindəndir. Mürəkkəb, amma şərəfli inkişaf yolu keçən, dövlətçiliyin möhkəmləndirilməsində, qanunçuluğun təmin edilməsində, cinayətkarlıqla mübarizədə mühüm rol oynayan Azərbaycan prokurorluğunun sələfi Xalq Cümhuriyyəti Nazirlər Şurasının qeyd edilən qərarı ilə Bakı dairə məhkəməsinin tərkibində təşkil edilmiş prokurorluq orqanı olmuşdur. Bu orqan dövrün çətinlikləri ilə - ilk növbədə, maliyyə və kadr problemləri ilə üzləşsə də, öhdəsinə düşən vəzifələrin icrasını təmin etmək üçün lazımi tədbirlər həyata keçirmiş və öz fəaliyyətini Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixdə təsdiqlədiyi "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə"yə uyğun qurmuşdur.

28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğraması ilə müstəqil dövlətin təsisatı kimi öz işini dayandıran milli prokurorluq orqanları ölkəmizin SSRİ kimi fövqəldövlətin tərkibində olduğu dövr ərzində hakim partiyanın sinfi xarakter daşıyan mənafelərinə xidmət edən bir qurum kimi fəaliyyət göstərmişdir. Bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması ehtiyacını nəzərə alaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSRİ-nin dövlət prokurorluğu haqqında" dekreti ilə Azərbaycan SSRİ-də Sovet prokurorluğunun əsası qoyulmuşdur. 1936-cı ilin iyul ayında Azərbaycan SSR prokurorluğu xalq ədliyyə komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ prokurorluğuna tabe edilməklə müstəqil qurum kimi fəaliyyət göstərmişdir.

Stalin hakimiyyəti dövründə uzun illər davam edən kütləvi siyasi repressiyalar prokurorluq orqanlarının kadrlarından da yan keçməmişdir. 1937-1938-ci illərdə Azərbaycanda "Düşmən və cinayətkar ünsür kimi" 21 nəfər prokurorluq işçisi əsassız mühakimə edilmiş, onların arasında Respublikanın Baş Prokurorları B.Vəlibəyov, Ə.Talıblı, baş prokurorun müavini Ə.Babaxanov, Şamaxı rayon prokuroru Ə.Əmirov və digərləri də olmuşlar. Ağır repressiya illərində də Azərbaycan prokurorluq orqanları əməkdaşlarının böyük əksəriyyəti öz vəzifə borclarını namusla yerinə yetirmişlər.

Böyük Vətən müharibəsi illərində digər dövlət strukturları kimi prokurorluq orqanlarının da işi hərbi vəziyyətə uyğun qurulmuşdur. Həmin dövrdə Azərbaycan Prokurorluğunun fəaliyyəti fərarilərlə mübarizə, hərbi məhsulların tədarükü, cəbhəyə yardım və arxa cəbhənin möhkəmləndirilməsi haqqında qanunların icrasını təmin etməyə yönəlmişdir.

Sonrakı dövrlərdə prokurorluq orqanlarının fəaliyyəti 24 may 1955-ci ildə qəbul edilmiş "SSRİ-də prokuror nəzarəti haqqında Əsasnamə" və 30 noyabr 1979-cu il tarixdə qəbul edilmiş "Prokurorluq haqqında" SSRİ Qanununa əsasən təşkil olunmuşdur.

Ölkəmiz ikinci dəfə müstəqillik qazandıqdan sonra anarxiya və xaos kimi səciyyələndirilən 1991-1992-ci illər və 1993-cü ilin birinci yarısını əhatə edən dövr ərzində Azərbaycan dövləti görünməmiş siyasi və iqtisadi tənəzzül, separatçı meyllərin güclənməsi və vətəndaş müharibəsi, müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üzləşmişdi. Yalnız ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər sayəsində ölkəmizdə dövlət çevrilişi cəhdləri, vətəndaş müharibəsi və seperatizm təhlükəsi aradan qaldırıldı, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə dayanıqlı ictimai-siyasi sabitlik əldə edildi, demokratik hüquqi dövlət quruculuğu prosesinə başlanıldı.

Digər hüquq mühafizə orqanları kimi prokurorluğun qarşısına mühüm tələblər qoyuldu, onun sıraları sağlam, əqidəli kadrlarla möhkəmləndirilməyə, təsadüfi, cinayətkar ünsürlərlə əlaqəsi olanlardan təmizlənməyə başlanıldı. Bu dövrdə müstəqil dövlətçiliyin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına istintaq edilmiş, təqsirkar şəxslər layiqli cəzalarını almışlar. Bu dövrdə ölkəmizdə 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı məharətlə alınmışdır. Həmin hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənməklə dövlətin etimadını doğrultmuşdur. Məhz ona görə də ümummilli liderimiz Heydər Əliyev demişdir: "Azərbaycan Prezidenti kimi, mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydalarının qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yolu keçmişdir. Qəbul olunmuş çoxsaylı qanun və məcəllələr, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlar, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar Məcəllələri və bir sıra mühüm normativ hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən etmişdir.

1995-ci ildə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə lahiyəsi hazırlanılıb, ümumxalq səsverməsində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşmiş orqan kimi tanımış, onun fəaliyyətini, təşkilini, strukturunu və səlahiyyətlərini müəyyənləşdirmişdir. Konstitusiyanın 133-cü maddəsinə görə Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

2002-ci ilin sentyabr ayının 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmiş, onun hüquq sistemindəki yerini və rolunu daha da gücləndirmişdir.

Prokurorluğun demokratik məzmunlu sivil bir dövlət təsisatı kimi yenidən formalaşmasında ulu öndər Heydər Əliyevin respublika prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi görüşün müstəsna əhəmiyyəti olmuşdur. Məhz prokurorluq işçiləri üçün taleyüklü əhəmiyyət kəsb edən bu müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara start verilmiş, Dövlət başçısının həmin müşavirədəki proqram xarakterli çıxışından irəli gələn tövsiyə və göstərişləri məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluqda görülməsi vacib olan işlərin əsas istiqamətlərini müəyyənləşdirmiş, prokurorluq orqanlarında həyata keçirilən islahatların əsasını təşkil etmişdir. Ulu öndərin söylədiyi "Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır..." sözləri respublikanın prokurorluq işçilərinə yüksək etimad göstərməklə bərabər üzərlərinə böyük məsuliyyət hissi qoymuşdur. Həyata keçirilən islahat tədbirləri "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkili üçün hərtərəfli təminat yaratmışdır.

Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı hörmətli prezidentimiz İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli qayğı və diqqət göstərilir, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülür. Prokurorluğun dövlət təsisatı kimi daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında Dövlət başçısı tərəfindən imzalanmış sərəncamlara müvafiq olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin və dövlət ittihamının müdafiəsi üzrə qurumlarının yeni sisteminin yaradılması, mütəmadi olaraq prokurorluq əməkdaşlarının əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, prokurorluq işçilərinin sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması istiqamətində görülən tədbirlər prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında da öz müsbət rolunu oynamışdır.

Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi ilə əlaqədar 28 dekabr 2006-cı il tarixdə Azərbaycan Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" sərəncam imzalamış və həmin sərəncamın icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən konkret Tədbirlər Planı hazırlanaraq icraya yönəldilmişdir.

Prokurorluq orqanlarının müasir dövrün yüksək tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısının sərəncamında dövlət quruculuğu sahəsində davam etdirilən islahatların və ölkəmizin cinayət hüquq sisteminin inkişafının demokratik cəmiyyətdə prokurorluğun rolunun artırılmasında, eləcə də fəaliyyətini müasir dövrün tələblərinə uyğun olaraq keyfiyyətcə yeni səviyyədə qurmasında müstəsna əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanmışdır.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi, həmçinin digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, "Prokurorluq haqqında" Qanunda müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratmışdır.

Ölkə Prezidenti tərəfindən 22 iyun 2009-cu il tarixdə imzalanmış "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" Fərmanla ölkədə korrupsiyaya qarşı mübarizənin yeni mərhələsinin əsası qoyulmaqla, Azərbaycan Respublikasının Baş Prokurorluğuna büdcə və digər maliyyə vəsaitlərinin, həmçinin bələdiyyələrin vəsaitlərinin istifadə olunması, dövlət və bələdiyyə əmlakına sahiblik, istifadə və sərəncam verilməsi, dövlət müəssisələrinin idarə olunması sahələrində korrupsiya və digər cinayətlərə dair prokurorluq orqanlarına daxil olan müraciətlərə, qanunvericilik aktlarına müvafiq olaraq müəyyən edilmiş qaydalarda səmərəli baxılması tövsiyə edilmişdir.

Korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün ölkədə başqa işlərlə bərabər Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş bir sıra tədbirlər də görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 11 mart tarixli Fərmanı ilə idarənin prokurorluq işçilərinin ümumi say tərkibi 60 ştat vahidi artırılaraq ümumi say tərkibi 100-ə çatdırılmışdır. 2011-ci il 18 mart tarixdə "Prokurorluq haqqında" və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməklə, korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanına tapşırılmışdır. Həmçinin, Prezidentin 2011-ci il 08 aprel tarixli Fərmanı ilə korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan məlumatlar üzrə ilkin yoxlamanın aparılması və ya korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı müxtəlif peşə sahələrində xüsusi biliklərə malik şəxslərdən istifadə etməklə fiziki və ya hüquqi şəxslərin fəaliyyətinin yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində mütəxəssislər qrupunun yaradılması nəzərdə tutulmuş, 17 mart 2014-cü il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməklə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin tərkibi genişləndirilmişdir.

Əminliklə demək olar ki, dövlətinə, xalqına və Prezidentinə hər zaman sadiqlik nümayiş etdirən prokurorluq orqanları bundan sonra da üzərinə düşən bütün vəzifələri məsuliyyətlə yerinə yetirməklə, cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizədə prinsipial mövqe tutacaq, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüququnun reallaşdırılması sahəsində bütün zəruri tədbirləri həyata keçirəcəkdir.

**Əlirza BABAYEV,**
**Qazax rayon prokuroru,**
**baş ədliyyə müşaviri**


## ELAN

**Azərbaycan Respublikası Daxili İşlər Naziri, general-polkovnik cənab Ramil Usubov tərəfindən Qərb bölgəsi üzrə Daxili İşlər Orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 29 oktyabr 2016-cı il tarixdə Gəncə şəhərində vətəndaşların qəbulu keçiriləcəkdir.**

**Qəbula düşmək arzusu olan vətəndaşlar qeydiyyata alınması və əlavə məlumat əldə etmələri üçün Qazax rayon PŞ-nə müraciət edə bilərlər.**

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(050) 327-62-31**
**(055) 327-62-31**

## İTMİŞDİR

**"Təşəbbüs FM" MMC-yə məxsus dairəvi möhür və künc ştamp itdiyi üçün etibarsız sayılır.**



Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:2200 SİFARİŞ: 2966

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.